# ÜLFƏT

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

QƏZET 1991-ci İLDƏN ÇIXIR

CÜMƏ AXŞAMI, 29 İYUL 2021-ci il / № 27 (1245)

WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU


# Azərbaycan, Türkiyə və Pakistan birliyinin təcəssümü





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 27-də Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev Türkiyə dövlətinin başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

**Görüşdə Türkiyə Böyük Millət Məclisi sədrinin ölkəmizə səfərinin Azərbaycanla Türkiyə arasında əlaqələrin daha da möhkəmlənməsi işinə töhfə verəcəyi qeyd edildi. Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətinin Şuşaya edəcəyi səfərin önəminə toxunularaq bildirildi ki, Azərbaycan və Türkiyə prezidentləri arasında imzalanan müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi əlaqələrimizin daha yüksək səviyyəyə qalxmasına xidmət edir. Söhbət zamanı Azərbaycanla Türkiyə arasında bütün sahələrdə uğurlu işbirliyinin olduğu vurğulandı.**

Bakıda keçiriləcək Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin birinci üçtərəfli görüşünün önəmi qeyd edilərək bildirildi ki, bu görüş üç ölkə arasında mövcud olan birliyi nümayiş etdirir. Vurğulandı ki, Azərbaycan, Türkiyə və Pakistan arasında qardaşlıq əlaqələri mövcuddur. Həm Türkiyə, həm də Pakistanın Vətən müharibəsinin ilk anlarından Azərbaycana dəstəyinin mühüm rolu qeyd edildi.

Söhbət zamanı üç ölkə arasında əməkdaşlığın geniş mənada Avrasiyada yeni işbirliyi çərçivələri formalaşdırdığı bildirildi.

**Görüşdə Azərbaycan və Türkiyə parlamentlərarası əməkdaşlığının da uğurla inkişaf etdiyi vurğulandı, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da möhkəmlənəcəyinə və genişlənəcəyinə əminlik ifadə olundu.**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 27-də Pakistan Milli Assambleyasının sədri Əsəd Qeysərin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Pakistan Milli Assambleyasının sədri Pakistan İslam Respublikasının Prezidenti Arif Alvinin və Baş nazir İmran Xanın salamlarını Azərbaycan Prezidentinə çatdırdı.

Prezident İlham Əliyev Pakistan Prezidentinin və Baş nazirinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Arif Alviyə və İmran Xana çatdırmağı xahiş etdi.

Milli Assambleyanın sədri dövlətimizin başçısını 44 günlük Vətən müharibəsində qazanılan Qələbə münasibətilə təbrik edərək Pakistan xalqının bu Zəfəri Azərbaycan xalqı ilə birlikdə qeyd etdiyini dedi.

**Görüşdə Pakistan Milli Assambleyasının sədrinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərin gələcək inkişafı baxımından önəmi qeyd edildi. Həmçinin Pakistan, Türkiyə və Azərbaycan parlamentlərinin sədrlərinin üçtərəfli görüşünün əhəmiyyəti vurğulandı, bu görüşün qardaş ölkələr arasında üçtərəfli tərəfdaşlığın inkişafı işinə xidmət etdiyi qeyd olundu, Pakistan və Azərbaycanın bütün məsələlərdə hər zaman bir-birini dəstəkləyən qardaş ölkələr olduğu bildirildi.**

Görüşdə İkinci Qarabağ müharibəsi zamanı Pakistanın dəstəyinə görə minnətdarlıq ifadə edildi, müharibənin ilk günlərindən dost ölkənin rəhbərliyinin Azərbaycanı dəstəklədiyi və Azərbaycanın ərazi bütövlüyü ilə bağlı önəmli bəyanatlar verdiyi qeyd olundu.

**Söhbət zamanı ölkələrimizin bütün beynəlxalq təşkilatlarda bir-birini dəstəklədikləri vurğulandı. Prezident İlham Əliyev Pakistana səfərini məmnunluqla xatırladaraq əməkdaşlığın müxtəlif sahələrdə daha da genişləndirilməsinin zəruriliyini qeyd etdi.**

Görüşdə Pakistan Milli Assambleyasının sədrinin Şuşaya edəcəyi səfərin əhəmiyyətinə toxunuldu və bu, ölkələrimiz arasında münasibətlərin inkişafının bariz nümunəsi kimi dəyərləndirildi.

**Söhbət zamanı ölkələrimizin parlamentləri arasında əməkdaşlığın inkişafı məmnunluqla qeyd edildi.**

# Nazirlər Kabineti yanında Operativ Qərargahın məlumatı



**Nazirlər Kabineti yanında Operativ Qərargah ölkəmizdə pandemiya ilə bağlı vəziyyət barədə məlumat yayıb.**

AZƏRTAC xəbər verir ki, məlumatda deyilir: "Artıq bir ildən çoxdur ki, dünyanın üzləşdiyi COVID-19 pandemiyası davam etməkdədir. Epidemioloji vəziyyətin getdikcə gərginləşməsi bir sıra ölkələrdə, eləcə də Azərbaycanda sərt karantin tədbirlərinin yenidən tətbiq olunmasını şərtləndirə bilər.

Pandemiyadan yeganə çıxış yolu əhalidə virusa qarşı kollektiv immunitetin formalaşmasıdır. Kollektiv immunitetin qısa müddətdə və təhlükəsiz yolla formalaşması yalnız vaksinasiya ilə mümkündür.

Ölkədə kollektiv immunitetin formalaşması istiqamətində artıq bir sıra tədbirlər görülmüşdür. Azərbaycan vaksinləri əldə edən və əhalinin kütləvi vaksinasiyasına başlayan ilk ölkələr sırasında olmuşdur. Həmçinin COVID-19 pasportu tələb olunan iş və xidmət sahələri işçilərinin azı 80 faizinin COVID-19 pasportuna malik olması, habelə toy mərasimləri keçirilən məkanlara və idman obyektlərinə daxil olmaq istəyən şəxslərin sözügedən pasporta sahib olması mütləq tələb kimi müəyyən edilmişdir.

**Həyata keçirilən tədbirlərin davamı olaraq, ölkə əhalisinin sağlamlığının qorunması və vaksinasiya prosesinin sürətləndirilməsi məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən qərar qəbul edilib. Qərara əsasən 2021-ci il 1 sentyabr tarixindən etibarən:**

dövlət orqanlarının (qurumlarının) əməkdaşlarının, habelə aşağıda qeyd olunan müəssisələrin işçilərinin (əmək və ya mülki müqavilələrlə işləməsindən asılı olmayaraq) azı 80 faizinin COVID-19-a qarşı birinci doza, 1 oktyabr tarixindən etibarən isə ikinci doza peyvənd olunması və ya COVID-19-a qarşı immunitet sertifikatının olması tələb olunur:

- çalışan işçi heyətin potensial xəstələrlə daimi təmasda olduqları nəzərə alınaraq, mülkiyyət formasından asılı olmayaraq bütün tibb və əczaçılıq müəssisələri;
- əyani dərslərin davamlı və təhlükəsiz bərpası məqsədilə mülkiyyət formasından asılı olmayaraq bütün elm və təhsil müəssisələri;
- insanların sıx toplaşması və yoluxma riskinin yüksək olması nəzərə alınaraq, siyahısı müvafiq Qərarla təsdiq olunan iş və xidmət sahələrində fəaliyyət göstərən müəssisələr.

Ali və orta-ixtisas təhsili müəssisələrində təhsil alan yaşı 18-dən yuxarı olan şəxslər əyani dərslərə yalnız COVID-19 pasportuna malik olduqları halda buraxılacaqlar. Əlavə olaraq, yaşı 18-dən yuxarı olan şəxslər ictimai iaşə müəssisələrinin, mehmanxanaların və iri ticarət mərkəzlərinin qapalı məkanlarında göstərilən xidmətlərindən yalnız COVID-19 pasportu olduğu halda istifadə edə biləcəklər.

COVID-19 pasportlarının operativ verifikasiyasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən müvafiq tətbiqetmə artıq yaradılmış və qısa müddətdə istifadəyə veriləcək.

**Tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə, sosial məsafənin qorunması və əl gigiyenası kimi ümumi qaydalara, habelə tətbiq edilən digər tələblərə riayət olunmasını təmin etmək məqsədilə müvafiq nəzarət tədbirlərinin icrasına davam ediləcək, epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması aşkar edildiyi hallarda fiziki və hüquqi şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq məsuliyyətə cəlb ediləcəklər".**

## Regionların inkişafı ölkənin iqtisadi qüdrətini göstərir

BAX SƏHİFƏ: 2

## Gənc alimlər arasında elmi yaradıcılıq müsabiqəsinə yekun vuruldu

BAX SƏHİFƏ: 2

## Aztəminatlı əməkdaşlara yardım edilib

BAX SƏHİFƏ: 2

## *Azərbaycanda koronavirus infeksiyasına 750 yeni yoluxma faktı qeydə alınıb*




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 750 yeni yoluxma faktı qeydə alınıb, 134 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 3 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 341 min 933 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 332 min 393 nəfər müalicə olunaraq sağalıb, 5 min 14 nəfər vəfat edib. Aktiv xəstə sayı 4 min 526 nəfərdir.

**Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 11 min 58, bu günə qədər isə ümumilikdə 4 milyon 3 min 650 test icra olunub.**




BAX SƏHİFƏ: 4

## Həmkarlar ittifaqına üzv ol - iş yerinə təminat al!

*(Əmək Məcəlləsinin 80-ci maddəsinə əsasən, işəgötürən həmkarlar ittifaqı üzvünü bu təşkilatın razılığı olmadan işdən azad edə bilməz)*

Beynəlxalq

## Pandemiya qadınların məşğulluğuna daha çox təsir edib

BAX SƏHİFƏ: 3

## *Orta məktəb üçün müəllim seçiriksə, onları orta məktəb proqramı ilə imtahan etməliyik*

BAX SƏHİFƏ: 4

# Regionların inkişafı ölkənin iqtisadi qüdrətini göstərir



**"Regionların sosial-iqtisadi inkişafı istiqamətində görülən işlər uğurla davam edir və bu irimiqyaslı proses son 18 ildə bütün ölkəni əhatə etmişdir. Qeyri-neft sektorunun davamlı inkişafı, kommunal xidmətlərin keyfiyyətinin yüksəldilməsi, iri sosial infrastruktur layihələrinin icrası da ardıcıl təmin edilir, yeni müəssisələr və çoxsaylı iş yerləri yaradılır. Bu da yerlərdə əhalinin məşğulluğunun artırılmasına, rifah halının yüksəldilməsinə, sosial vəziyyətinin yaxşılaşdırılmasına gətirib çıxarıb". Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev mediaya bu açıqlamasının davamında bildirib:**

**- Regionlarda infrastruktur obyektlərinin açılışında, təməlqoyma mərasimlərində cənab Prezident İlham Əliyev şəxsən özü iştirak edir, istehsal müəssisələri ilə tanış olur, ictimaiyyət nümayəndələri və sahibkarlarla görüşlər keçirir, qaldırılan məsələlərin həll olunması üçün müvafiq göstərişlər verir. Bütün bunlar pandemiya səbəbindən dünyanı bürüyən iqtisadi böhrana baxmayaraq, ölkəmizdə iqtisadi yüksəliş sürətlə davam edir. Bütün bunlar gündən-günə güclənən dövlətimizin iqtisadi qüdrətindən xəbər verir.**

İşğaldan azad edilmiş ərazilərimizdə abadlıq-quruculuq işlərinə başlanılanda cənab Prezident bəyan etmişdi ki, digər regionlarımızla bağlı nəzərdə tutduğumuz proqramlar və layihələr də paralel şəkildə icra olunacaq. Dövlət başçısının Naftalan şəhərinə, həmçinin Goranboy və Daşkəsən rayonlarına səfəri zamanı gördük ki, burada yollar, içməli su xətləri çəkilib, xəstəxanalar, sosial obyektlər tikilib, yeni iş yerləri yaradılıb. Müxtəlif sahələri əhatə edən həmin işlər bu regionun da hərtərəfli inkişafına təkan verəcək, sakinlərin həyat səviyyəsinin yüksəlməsinə xidməd edəcək.



**Gənclərin sağlam ruhda tərbiyə olunması, pis vərdişlərdən kənar olması, bədən tərbiyəsinin inkişafı, həmçinin gənclərin asudə vaxtlarını daha səmərəli keçirmələri məqsədilə ölkəmizdə yeni-yeni idman kompleksləri tikilməkdədir. Dövlət başçısının ötən həftə Goranboy rayonunda açılışını etdiyi Olimpiya İdman Kompleksi burada yaşayan gənclərin idmana marağının artırılmasına, onların potensialının üzə çıxarılmasına, eyni zamanda idmanın kütləviliyinin təmin edilməsinə xidmət edəcək.**

Vətən müharibəsində işğalçı Ermənistan Azərbaycan Ordusunun qarşısında aciz duruma düşərək məğlubiyyətlə üzləşərkən bizim dinc sakinləri hədəf almağa başladı. Cəbhə xəttindən xeyli uzaqda yerləşən Gəncə şəhəri raket hücumlarına məruz qaldı. Xeyli mülki şəxs həlak oldu və yaralandı, infrastruktur obyektlərinə, tarix-mədəniyyət abidələrinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəydi. Azərbaycan Ordusu isə müharibə qanunlarına tam əməl edərək Ermənistanın çirkin əməllərinin qisasını döyüş meydanında artıqlaması ilə aldı. Dövlət başçımız Qərb bölgəsinə səfəri çərçivəsində Gəncə şəhərinə gedərək raket hücumlarının səbəb olduğu cinayət səhnələri ilə tanış oldu, həlak olan dinc sakinlərin xatirəsinə ehtiramını bildirdi. Bu, şəhidlərə, həlak olanla, ümumiyyətlə, müharibədən zərərçəkənlərə dövlətin diqqət və qayğısı ilə yanaşı, Ermənistan dövlətinin xain siyasətinin dünyaya nümayişi idi.

**Hazırda işğaldan azad edilmiş ərazilərimizdə abadlıq-quruculuq işləri aparılır, mədəni və dini abidələrimiz bərpa edilir, elektrik xətləri çəkilir. Bərdə-Ağdam, Füzuli-Şuşa, Horadiz-Ağbənd, Zəngilan-Qubadlı-Laçın, Füzuli-Hadrut, Füzuli-Cəbrayıl, Zəfər və digər yolların tikintisinin də davam etdirildiyini söyləyən AHİK sədri Səttar Möhbalıyev ərazilərin işğalçı Ermənistan tərəfindən minalanmasının və minalanmış ərazilərin xəritələrinin tam şəkildə Azərbaycana verilməməsinin görülən işlərin daha tez başa gəlməsinə mane olduğunu qətiyyətlə pisləyib:**

**- Sonda qeyd edim ki, müharibə başa çatandan indiyədək 150-yə yaxın vətəndaşımız minalara düşərək ya həlak olub, ya da öz sağlamlığını itirib. Bu, Ermənistan dövlətinin terrorçu xislətini açıb göstərir. Dünya dövlətləri tərəfindən isə Ermənistana mina xəritələrinin verilməsi ilə bağlı heç bir təzyiq görmürük. Lakin bütün bunlar xalqımızın qurub-yaratmaq əzminin, işğaldan azad edilmiş ərazilərin bərpası ilə bağlı layihələrin gerçəkləşdirilməsinin qarşısını ala bilməz.**



# Gənc alimlər arasında elmi yaradıcılıq müsabiqəsinə yekun vuruldu

**İyulun 15-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun gənc alimləri və mütəxəssisləri arasında elmi yaradıcılıq müsabiqəsi keçirilmişdir. İnstitutun yaradılmasının 5-ci ildönümünə həsr olunmuş müsabiqəyə çox sayda elmi-tədqiqat işləri təqdim edilmişdi. İnstitutun direktoru, AMEA-nın vitse-prezidenti, akademik İradə Hüseynovanın əmri ilə komissiya yaradılıb və müsabiqənin qaydaları təsdiq olunub.**

Müsabiqənin əsas məqsədi xüsusi tədqiqatçı istedadına malik gəncləri üzə çıxararaq həvəsləndirməkdən, onlara elmi araşdırma və təhlilaparma bacarıqlarını nümayiş etdirmək imkanı yaratmaqdan ibarət olub. Müsabiqəyə öz işlərini təqdim etmiş namizədlərin anket məlumatları, elmi əsərləri, yerinə yetirdikləri tədqiqat işlərinin aktuallığı, müasirliyi, metodologiyası, nəzəri və praktiki əhəmiyyəti komissiya tərəfindən ətraflı müzakirə olunub. Akademik İradə Hüseynova, müsabiqə komissiyasının və institutun elmi şurasının üzvləri namizədlərin elmi araşdırmalarını əks etdirən posterlərə baxış keçiriblər. Sonra namizədlər komissiya qarşısında çıxış edərək üzvlərin çoxsaylı suallarını cavablandırıblar. Qeyd edilən proseslərdə AMEA Azad Həmkarlar İttifaqının sədr müavini, kimya elmləri doktoru, professor Raya Nəcəfova da iştirak edib.

Komissiyanın qərarı ilə yekunda Populyasiya genomiksi laboratoriyasının kiçik elmi işçisi Lalə Axundova I yerə (mükafat 500 AZN), Proteomiks beynəlxalq laboratoriyasının kiçik elmi işçisi Aynurə Paşayeva və Populyasiya genomiksi laboratoriyasının kiçik elmi işçisi Gülmirə Əlibəyova II yerə (hərəsinə 300 AZN), Bioadaptasiya laboratoriyasının kiçik elmi işçisi Nərgiz Bayramova və Bionanotexnologiya beynəlxalq laboratoriyasının kiçik elmi işçisi Leyla Xəlilova III yerə (hərəsinə 250 AZN) layiq görüldülər.

**Tədbirin sonunda akademik İradə Hüseynova gənc alim və mütəxəssislərə göstərilən qayğı və maliyyə dəstəyinə görə, Azad Həmkarlar İttifaqının rəhbərliyinə dərin təşəkkürünü bildirdi. Qalibləri təbrik edib, onlara tövsiyələrini söylədi. Hər birinə gələcək elmi fəaliyyətlərində müvəffəqiyyətlər arzuladı.**

# Beynəlxalq yarışın qalibi oldu

**Su Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi (HİRK) idman sahəsinə də hər zaman xüsusi diqqət ayırır. Sahə işçilərinin respublika, beynəlxalq miqyaslı çempionatlara, turnirlərə hazırlıq prosesində onlara maddi və mənəvi dəstək göstərir. Mütəmadi olaraq sahə üzv təşkilatları arasında yarışlar keçirir, qaliblərə mükafatlar verir.**




Ənənəsinə sadiq qalan Respublika Komitəsi bu dəfə "WJFMMAF" beynəlxalq təşkilatı və Budo Döyüş Növləri Federasiyası tərəfindən şəhidlərimizin əziz xatirəsinə həsr olunan humanitar aksiyaya qoşulub.

Şəhidlərimizin əziz xatirəsinə həsr olunan beynəlxalq yarışda müxtəlif çəki kateqoriyaları üzrə fərqli divizionlarda 30 idmançı (o cümlədən 6 ölkədən 8 idmançı) mübarizə aparıb. Ümumilikdə 15 peşəkar döyüş keçirilib. Yarışda Su Təsərrüfatı İşçiləri HİRK-in əməkdaşı, Sosial sığorta üzrə mütəxəssisi Ümid Məmmədzadə də iştirak edib. Ağır çəkidə mübarizə aparan Ü.Məmmədzadə finalda türkiyəli rəqibi, dəfələrlə peşəkar döyüşlərin qalibi Gökhan Gülücü məğlub edərək çempion adını qazanıb və üçrəngli Azərbaycan bayrağını zirvəyə qaldırıb.

**Qeyd edək ki, Ümid Məmmədzadə "Qaydasız döyüş üzrə ikiqat dünya çempionu", "Kickboxing" idman növü üzrə "Üçqat respublika çempionu", "İkiqat Bakı çempionu", "Qafqaz çempionu", "Heydər Əliyev adına turnirin çempionu", "Beynəlxalq turnirin çempionu", "WAKO üzrə Avropa çempionu" və sairə fəxri adlar qazanıb, mükafat və medallar alıb.**



# Bayram sovqatı paylanıldı

**Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi 44 günlük Vətən müharibəsi dövründə olduğu kimi, indi də torpaqlarımız uğrunda qanını əsirgəməyən oğullarımızın, onların ailə üzvlərinin yanındadır. Respublika Komitəsinin əməkdaşları ənənələrinə sadiq qalaraq müqəddəs Qurban bayramında da bu insanlara doğma münasibətini bildirdi. Respublika Komitəsinin xidmət əhatəsinə daxil olan müəssisə və təşkilatlarda çalışan aztəminatlı ailələrə, şəhid ailələrinə və qazilərə 800 bağlama bayram sovqatı paylanıldı.**

# Aztəminatlı əməkdaşlara yardım edilib

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) institut və təşkilatlarında çalışan əməkdaşların, eləcə də şəhid ailələri və Vətən müharibəsi qazilərinin sosial rifahının yaxşılaşdırılması üçün davamlı olaraq tədbirlər həyata keçirilir.**



Müsəlman dünyasının müqəddəs bayramlarından biri olan Qurban bayramı ərəfəsində Riyaziyyat və Mexanika İnstitutunda və AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzində Həmkarlar Təşkilatı tərəfindən daha bir humanist addım atılıb.

**Aztəminatlı ailələrdən olan əməkdaşlara ərzaq yardımı, şəhid ailələri və Vətən müharibəsinin qazilərinə isə maddi yardım göstərilib.**

# Fədakarlığın qiyməti və xeyirxahlıq aksiyası



**Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) Tədris-təcrübə təsərrüfatının əməkdaşları istər COVID-19-un tüğyan etdiyi aylarda, istərsə də Vətən müharibəsi günlərində bir gün də olsun belə fəaliyyətlərini dayandırmamışdılar. Xüsusilə erməni vandallarının atdıqları raket səbəbindən Gəncədə törənmiş dağıntıların təmizlənməsi işində fəallıq göstərmiş, zərərçəkən sakinlərə köməkliklərini əsirgəməmişdilər. Bu fədakarlıqlarına görədir ki, ADAU-nun rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərovun təşəbbüsü ilə universitetin həmkarlar ittifaqı komitəsi tədris-təcrübə təsərrüfatının əməkdaşlarının yay mövsümü istirahətlərinə xüsusi diqqət yetirir. Bu diqqətin tərkib hissəsi olaraq onlar bir neçə gün əvvəl Göygöl rayonu ərazisində yerləşən səfalı Toğana kəndinə turist səfərinə aparılmışdılar. Səfər maraqlı tədbirlərlə yaddaqalan oldu.**



***

Azərbaycan Dövlət Aqrar Universitetinin Həmkarlar İttifaqı Komitəsi müqəddəs Qurban bayramı münasibətilə universitetin 300-ə yaxın texniki işçisinə Qurban payı vermişdir. Qurbanlıq heyvanlar universitetin tədris-təcrübə təsərrüfatında və maldarlıq-atçılıq mərkəzində kəsilmişdir.

***

**Universitetin həmkarlar ittifaqı komitəsi himayəyə götürdüyü şəhid Canlar Aqil oğlu Cavadovun ailəsini də Qurban bayramı sovqatı ilə sevindirmişdir. Xatırladaq ki, 5 azyaşlı usağı olan şəhidin həyat yoldaşının hesabına Azərbaycan Dövlət Aqrar Universitetinin Həmkarlar İttifaqı Komitəsi hər ay 300 manat pul köçürür.**

## Şəhidlik zirvəsinin fatehləri

# “Mühasirəyə düşmüş kəşfiyyatçıları həyatı bahasına məhz o xilas etdi”



**44 günlük Vətən müharibəsində qəhrəmancasına döyüşərək Şəhidlik zirvəsinə ucalan igidlərimizdən biri də Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) baş leytenantı Aslan İsmayılovdur.**

Aslan Əvəz oğlu İsmayılov 1 iyun 1993-cü ildə Salyan rayonunun Sarvan kəndində anadan olub. 2007-ci ildə İsfəndiyar Həsənov adına Sarvan kənd tam orta məktəbinin 9-cu sinfini bitirdikdən sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olub. 2010-cu ildə liseyi bitirərək yüksək balla Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirib. Motoatıcı mexanik-mühəndis ixtisasına yiyələnib. Naxçıvandakı “N” saylı hərbi hissədə zabit kimi xidmətə başlayıb. 2018-ci ildən XTQ sıralarında xidmət edirdi.

Atası Əvəz İsmayılov deyir ki, Aslanın uşaqlıqdan idmanın kikboks üzrə növünə marağı var idi: “Orta məktəbdə dərslərini də yaxşı oxuyurdu. Amma hərbi sahəyə həvəsi hər şeydən üstün idi. Məktəblər arasında keçirilən hərbi hazırlıq və idman yarışlarında komandanın kapitanı idi”.

**XTQ-nin kəşfiyyat bölüyünün komandiri, baş leytenant Aslan İsmayılov Vətən müharibəsinin ilk günlərində Murovdağda olsa da, sentyabr ayının 29-dan Füzulidə başlanmış ağır döyüşlərə göndərilir. Cəbrayıl alınarkən orada Azərbaycan bayrağını ucaldan döyüşçülərdən biri də Aslan olub.**

Anası Gülbəniz xanım deyir ki, oğlu sentyabrın 26-da ona zəng vuraraq təlimə getdiklərini və zəng çatmasa, nigaran qalmamasını bildirir: “Balamı 1 il 2 ay idi ki, nişanlamışdıq. Qızı özü sevib-seçmişdi. Pandemiya ilə bağlı tətbiq edilən məhdudiyyətlərə görə toyu yubadırdıq. Heyf, mənim də bütün arzularım puç oldu...”.

Aslan evlərinə sonuncu dəfə oktyabr ayının 4-də zəng vurur. Gülbəniz xanım həmin günü belə xatırlayır: “O qədər şən idi və gülə-gülə danışırdı ki, elə bildim müharibə artıq bitib. Sonda dedi ki, “ana, hamımıza dua edin””.

**Aslan İsmayılov oktyabrın 8-də axşam saatlarında Hadrut istiqamətində kəşfiyyat zamanı baş verən döyüşdə aldığı güllə yarasından qəhrəmancasına şəhid olur.**

Atası Ə.İsmayılov deyir, Aslan şəhid olduqdan sonra döyüş yoldaşları evimizə gəldilər: “Dedilər ki, biz sizin oğlunuza bir can borcluyuq: mühasirəyə düşmüş kəşfiyyatçıları həyatı bahasına məhz o xilas etdi. Mən Aslanla fəxr edirəm. Fəxr edirəm ki, balam Vətən torpağının azadlığı uğrunda ən uca məqama-Şəhidlik zirvəsinə ucaldı. Ən böyük arzum odur ki, bizdən sonra gələcək nəsillər bu qəhrəman döyüşçülərimizi unutmasınlar.

**Aslan Əvəz oğlu İsmayılov “Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi” yubiley medalı və ölümündən sonra isə “İgidliyə görə”, “Vətən uğrunda”, Füzulinin azad olunmasına görə”, Cəbrayılın azad olunmasına görə” və “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif olunmuşdur.**

# “Ana, məndən sənə oğul olmaz, mən Vətənin oğluyam”



**“Ana, məndən sənə oğul olmaz, mən Vətənin oğluyam”. Bu sözləri Ayxan anasına 8 mart günü demişdi. Bir ananın oğlundan duya biləcəyi ən qürurlu və eyni zamanda qəlb sızladan sözlər idi bu sözlər. Bir neçə ay sonra Ayxan elə dediyi kimi-Vətənin oğlu oldu.**

Məmmədov Ayxan Rəfail oğlu Naxçıvanın yetişdirdiyi qəhrəman oğullardandı. O, 14 sentyabr 1998-ci ildə Şərur rayonunun Xanlıqlar kəndində dünyaya gəlib. 2004-cü ildə Şərur rayon Xanlıqlar kəndi Zülfüqar Hüseynov adına tam orta məktəbdə təhsil almağa başlayıb. 2013-cü ildə Heydər Əliyev adına Ali Hərbi Liseyə daxil olub. Oranı bitirdikdən sonra təhsilini 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində davam etdirib. Orada da 4 il təhsil aldıqdan sonra 2020-ci ildə leytenant hərbi rütbəsinə layiq görülüb. İyunun 20-də təyinatla Beyləqana göndərilib. 10 gün sonra kəşfiyyat kurslarına qatılıb və 20 günlük kursu müvəffəqiyyətlə başa vurub. Daha sonra Cəlilabada göndərilib. Elə 44 günlük Vətən müharibəsinə də Cəlilabaddan yollanıb. Sonuncu dəfə 23 fevral 2020-ci ildə evlərindən, sevdiklərindən ayrılan Ayxan 9 aydan sonra onlarla görüşmədən birbaşa döyüşə yollanıb.

**Oktyabrın 18-də Ayxan ailəsinə zəng edib hər kəslə danışandan sonra atasına “mənə qurban kəs” deyib. Ancaq qurbanı hansı səbəbə dediyini deməyib. Səhəri tezdən atası oğlunun adına qurban kəsib. Atası gözləyib ki, Ayxan yenə zəng edəcək və ona qurbanını kəsdiyini deyəcək. Ancaq Ayxan bir daha zəng etmir. Bəlkə bu qurbanı illərdi düşmən tapdağı altında qalan torpaqlarımızın azad olunduğu üçün istəyib, bəlkə də Şəhadət yoluna qədəm qoyduğu üçün.**

Zəng etdiyi gündən cəmi 3 gün sonra - oktyabrın 21-i Cəbrayıl, Füzuli istiqamətində gedən döyüşlər zamanı şəhid olsa da, Ayxanın şəhid olduğu xəbəri oktyabrın 23-də yayılır. Heç kimin cəsarəti çatmır bu xəbəri ailəsinə desin. Min bəhanə ilə qohum-qonşu onların evinə axışır. Bu gəl-getlər artıq ailəyə acı reallıqdan xəbər verirdi. Ancaq onlar Ayxanın yoxluğu barəsində düşünmürdülər.

Lakin oktyabrın 24-ü təyyarə ilə Naxçıvana 12 şəhid gətirilir. Onların arasında Ayxan da var idi. Ayxan elə həmin gün doğulub boya-başa çatdığı Şərur rayon Xanlıqlar kənd qəbiristanlığında torpağa tapşırıldı.

**Ayxan Rəfail oğlu Məmmədov ölümündən sonra ölkə başçısı İlham Əliyevin Sərəncamı ilə “Azərbaycan bayrağı” ordeni və “Vətən uğrunda” medalı ilə təltif edilib.**

**Aliyə SƏMƏDOVA**

*Beynəlxalq*

# Pandemiya qadınların məşğulluğuna daha çox təsir edib

**Beynəlxalq Əmək Təşkilatının (BƏT) məlumatına görə, COVID-19 pandemiyası zamanı əmək sahəsində qadın və kişilər arasında artan bərabərsizlik yaxın gələcəkdə də davam edəcək.**



Yeni analitik hesabat göstərir ki, 2021-ci ildə işləyən qadınların sayı 2019-cu ildə olduğundan daha 13 milyon azalacaq, kişilərin məşğulluğu isə 2019-cu ildəki səviyyədə qalacaq. 2021-ci ildə qadınların iş yerlərinin proqnozlaşdırılan artımı kişilər üçün analoji göstəricidən çox olsa da, bu, qadınların pandemiyaya qədər məşğulluq səviyyəsinə qaytarılması üçün kifayət etməyəcəkdir.

2021-ci ildə dünyada əmək qabiliyyətli yaşda olan qadınların yalnız 43,2 faizi əmək qabiliyyətli yaşda olan kişilərin 68,6 faizinə nisbətən işlə təmin ediləcəkdir.

“Ədalətin qurulması” haqqında BƏT-in qısa qeydi (COVID-19-dan sonra bərpa əsasında qadınların iş və əmək fəaliyyəti hüquqları) göstərir ki, qadınlar ən çox zərər çəkmiş sektorlarda, məsələn, mənzil və ictimai qidalanma, eləcə də istehsal sektorunda qeyri-mütənasib olaraq daha çox iş və gəlir itirirlər.

**Qlobal miqyasda 2019-2020-ci illər aralığında qadınların məşğulluğu 4,2 faiz azalmışdır ki, bu da 54 milyon iş yerinin itirilməsidir.**

Hesabatda deyilir ki, bütün bölgələr eyni şəkildə zərər görməyib. Şimali və Cənubi Amerikada pandemiya nəticəsində qadınların məşğulluğunun ən böyük azalması baş vermişdir (9,4 faiz). İkinci ən böyük azalma ərəb dövlətlərində çalışan qadınların sayında müşahidə olunub. 2019-2020-ci illlərdə bu ölkələrdə qadınların məşğulluğu 4,1 faiz, kişilərin məşğulluğu isə 1,8 faiz azalıb.

Asiya-Sakit Okeanı regionunda pandemiya kişilər ilə (2,9 faiz) müqayisədə qadınların məşğulluğunun 3,8 faiz azalmasına səbəb olub. Avropada və Mərkəzi Asiyada qadınların məşğulluğu kişilər ilə müqayisədə daha çox aşağı düşüb.

**Afrikada kişilərin məşğulluğu bütün coğrafi bölgədə 0,1 faiz (2019-cu ildən 2020-ci ilə qədər olan dövrdə), qadınların məşğulluğu isə 1,9 faiz azalıb.**

Pandemiya zamanı iş itkisinin qarşısının alınması üçün tədbirlər görmüş ölkələrdə qadınların vəziyyəti xeyli yaxşılaşıb.

**Məsələn, Çili və Kolumbiyada əməkhaqqına subsidiyalar yeni işçilərə tətbiq edildi, subsidiyaların miqdarı qadınlar üçün daha yüksək idi. Seneqalda qadın sahibkarlara möhkəm dəstək verildi. Digər hallarda, məsələn, Meksika və ya Keniyada kvotalar qadınların ictimai məşğulluq proqramlarında iştirakını təmin etmək üçün müəyyən edilmişdir.**

Qısa şərhdə qeyd olunur ki, irəliyə doğru atılmış addım daha ədalətlidir . Və bu o deməkdir ki, gender bərabərliyi gender aspektlərini nəzərə alan strategiyaların bərpası üzrə səylərin mərkəzində olmalıdır və tətbiq olunmalıdır. Bunlara aşağıdakılar daxildir:

*-səhiyyə, sosial iş və təhsil sektorları qadınlar üçün əhəmiyyətli iş yerləri olduğu üçün qayğı sektoruna investisiya qoyulmalıdır, bu, qadın və kişilər arasında vahid bölgünün formalaşdırılmasına kömək edə bilər;*

*-sosial müdafiənin əhatə dairəsində mövcud gender fərqinin azaldılması məqsədilə hamı üçün hərtərəfli, adekvat və davamlı sosial müdafiəyə ümumi girişin təmin edilməsi üzrə iş;*

*-bərabər dəyərli əmək üçün bərabər ödəniş təşviqi;*

*-əmək sahəsində zorakılığın və təcavüzün aradan qaldırılması. Pandemiya zamanı məişət zorakılığı, iş yerində gender zorakılığı və şiddət kəskinləşib ki, bu da qadınların ödənişli işə malik olma imkanlarını daha da zəiflədib;*

*-qərarların qəbul edilməsində, sosial dialoqda və sosial tərəfdaş institutlarında qadınların iştirakına yardım.*

# Distant iş haqqında yeni saziş imzalanıb

**İyulun 13-də Fransada ictimai xidmət işçilərinin daxil olduğu 9 həmkarlar ittifaqı federasiyası bütün ictimai sektoru əhatə edən distant iş haqqında yeni saziş imzalayıb. Çərçivə sazişi dövlət sektorunun üç sütununun - yerli hakimiyyət orqanlarının, nazirliklərin və xəstəxana xidmətlərinin işəgötürənlərinin bu il dekabrın 31-dək yerli səviyyədə sazişin həyata keçirilməsi üzrə danışıqlara başlamalarını tələb edir.**



Saziş sağlamlıq və təhlükəsizlik, gender bərabərliyi, məlumatların təhlükəsizliyi və məxfiliyi, iş vaxtı və digər əsas məsələləri əhatə edir. Ləğvetmə hüququnun şərtləri müvafiq səviyyədə razılaşdırılmış sazişin müddəalarına uyğun olaraq qalır. Tam iş günü məşğul olan işçilər həftədə üç günə qədər evdən və ya başqa bir uyğun alternativ yerdən işləyə bilərlər. Məsafədən iş üçün ödəniş gündə 2.50 avro təşkil edir. Maksimum ödəniş ildə 220 avrodur. Bu məbləğ nazirliklər və xəstəxanalara aiddir. Lakin yerli hakimiyyət orqanları üçün xüsusi məbləğ yerli səviyyədə qalır.

**Azər MUSTAFAYEV**

# Ölkə vətəndaşları tərəfindən valideynləri olan uşaqların övladlığa götürülməsinin xüsusiyyətləri

*Hər bir uşaq özünün fiziki, əqli, mənəvi, əxlaqi və sosial inkişafı üçün lazımi həyat səviyyəsi hüququna malikdir (BMT-nin"Uşaq hüquqları haqqında" Konvensiyası, maddə 27)*

**(əvvəli ötən sayımızda)**

**Qanunvericilikdə övladlığa götürmək istəyən şəxsin ərizəsində qeyd edilməli məlumatlar dəqiq göstərilmişdir. Belə ki, ərizədə aşağıda qeyd edilən məlumatlar mütləq göstərilməlidir:**

- övladlığa götürmək istəyən şəxsin özünün və ərinin (arvadının), habelə ailə üzvlərinin hər birinin soyadı, adı, atasının adı, yaşayış yeri və ya faktiki yaşadığı ünvan, vətəndaşlığı (şəxsiyyətini təsdiq edən sənədə dair məlumatlar);

- övladlığa götürmək istəyən şəxsin və onun ərinin (arvadının) uşağı övladlığa götürməyə dair razılığı;

- övladlığa götürmək istəyən şəxsin və onun ərinin (arvadının) özləri və ailə üzvləri barədə fərdi məlumatların, sağlamlığı və məhkumluğu barədə, habelə gəlirləri, xərcləri və öhdəlikləri barədə məlumatların nazirlik tərəfindən qanunla müəyyən edilmiş qaydada əldə edilməsinə dair razılığı;

- övladlığa götürmək istəyən şəxsin və onun ərinin (arvadının), habelə ailə üzvlərinin övladlığa götürüləcək uşaqla eyni ünvanda yaşamağa dair razılığı;

-imza, tarix, əlaqə vasitələri (elektron poçt ünvanı, telefon (ev, iş, operatorun kodu göstərilməklə mobil telefonu).

**Valideynləri olan uşaq övladlığa götürüldükdə isə uşağın valideynlərinin razılığı da altsistemə daxil edilməlidir. Övladlığa götürmək istəyən şəxs övladlığa götürülən uşağın qohumu (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) və ya ögey atası (anası) olduqda, ərizədə həmçinin bu barədə məlumat da öz əksini tapmalıdır.**



ƏƏSMN övladlığagötürmənin uşağın mənafeyinə uyğunluğunun müəyyən edilməsi mərhələsində vahid informasiya bazasında uçota alınmış məlumatların monitorinqini aparmaq hüququna malikdir.

Övladlığa götürmək istəyən şəxs uçota alındıqdan sonra 10 iş günü müddətində sosial işçi onun yaşayış yerində müsahibə keçirir.

Müsahibə zamanı sosial işçi tərəfindən onun həyat şəraiti, maraqları, ailə tərkibi barədə məlumatlar, habelə ailə üzvlərinin övladlığa götürməyə münasibəti öyrənilir, eyni zamanda övladlığagötürmə ilə bağlı şəxs məlumatlandırılır və müsahibənin nəticələrinə dair 2 iş günü müddətində ilkin qiymətləndirmə rəyi hazırlanaraq altsistemə ötürülür.

**Müsahibə başa çatdıqdan sonra uşaqlarla iş üzrə sosial işçi tərəfindən övladlığa götürmək istəyən şəxsin maddi-məişət şəraiti uşağın mənafeyinə uyğunluq baxımından müayinə edilir. Nəticəsi barədə akt tərtib edilir və həmin gün akt altsistemə daxil edilir. Nazirlik aparılan müsahibəyə dair sosial işçilərin ilkin qiymətləndirmə rəyi və maddi-məişət şəraitinin müayinəsinin nəticələrinə dair akt əsasında müsahibənin nəticələrinə dair qərar qəbul edir. Müsahibədən keçmiş şəxs təlimlərə cəlb edilir. Nazirlik övladlığagötürmə ilə bağlı bütün mərhələlərin nəticəsinə uyğun olaraq övladlığagötürmənin əsaslandırılması və övladlığa götürülən uşağın mənafeyinə uyğunluğu haqqında rəy hazırlayır.**

Nazirliyin uşağın övladlığa götürülməsi ilə bağlı rəyi müsbət olduqda, uşağı övladlığa götürmək istəyən şəxs (şəxslər) həmin rəylə birlikdə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə uyğun olaraq xüsusi icraat qaydasında ərizə ilə övladlığa götürülən uşağın yaşadığı (olduğu) yer üzrə məhkəməyə müraciət edir.

**Övladlığagötürülmə barədə ərizədə övladlığa götürənlərin (götürənin) soyadı, adı, atasının adı, doğulduğu il, yaşayış yeri, məşğuliyyət növü, övladlığa götürülən uşağın soyadı, adı, atasının adı, onun yaşayış yeri (olduğu yer), valideynləri, qardaş və bacılarının olub-olmaması barədə məlumat, övladlığagötürülmə xahişini əsaslandıran hallar, bu halları təsdiq edən sübutlarla bərabər həm də uşağın soyadının, adının, atasının adının, onun doğulduğu tarixin (1 yaşınadək uşaqlar övladlığa götürüldükdə) dəyişdirilməsi, övladlığa götürənlərin (götürənin) valideynlər (valideyn) kimi uşağın doğulması haqqında akt qeydində yazılması barədə xahiş də öz əksini tapmalıdır.**

**L.ACALOVA,**
**AHİK-in Hüquq şöbəsinin müdiri**

**(davamı növbəti sayımızda)**

ülfət
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ
WWW.ULFET-AZ.COM
Son səhifə
CÜMƏ AXŞAMI, 29 İYUL 2021-ci il / № 27 (1245)


## Təbrik



**Bu günlərdə Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqının sədri Hüseyn Kərimovun 65 yaşı tamam olacaq.**

H.Kərimov 1977-ci ildə D.Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutunun (indiki ADİU) əməyin iqtisadiyyatı fakültəsini bitirdikdən sonra "Azərittifaq"ın rayonlararası avtobazasında mühasib kimi əmək fəaliyyətinə başlayıb. Həmin il hərbi xidmətə çağırılıb.

**Hərbi xidmətdən qayıtdıqdan sonra Göyçay Əhaliyə Məişət Xidməti İstehsalat İdarəsində əməkhaqqı üzrə mühasib,1984-cü ildən 1990-cı ilə qədər baş iqtisadçı vəzifələrində işləyib.**

Sonra əmək fəaliyyətini bir sıra müəssisələrdə davam etdirib.

Bir müddət Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sistemində məsul vəzifələrdə çalışıb.

**İşçilərin sosial-iqtisadi, əmək hüquqlarının qorunması, sağlam və təhlükəsiz iş şəraitinin yaradılması məsələlərini daim diqqətdə saxlaması, bu istiqamətdə işlədiyi idarələrin rəhbərliyi qarşısında təkliflərlə çıxış etməsi onu həmkarlar ittifaqı təşkilatı ilə sıx bağlayıb. Məhz bu xarakterik xüsusiyyətləri sonrakı fəaliyyətində də vacib rol oynayıb. Belə ki, H.Kərimov 2019-cu ildə "Azərişıq" ASC-nin Həmkarlar İttifaqı Birliyinin sədri, 2020-ci il iyulun 17-də isə Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqının sədri vəzifəsinə seçilib.**

Həmkarlar ittifaqı sistemində işləmək Hüseyn müəllimə işçilərin əmək, sosial, istirahət hüquqlarının təminatı baxımından daha səmərəli fəaliyyət göstərməyə imkan verdi. Prinsipiallığı, peşəkarlığı və sosial tərəfdaşlarla ünsiyyət qurmaq bacarığı ittifaq üzvləri arasında ona yüksək hörmət qazandırıb.

**Hüseyn Kərimovu yubiley yaşı münasibətilə təbrik edir, ona gələcək fəaliyyətində uğurlar və cansağlığı arzulayırıq.**

**Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Həmkarlar İttifaqının kollektivi**

# II Qarabağ müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş

## *şahmat və dama yarışları*



**Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Şəki Rayon Komitəsinin təşkilatçılığı, Təhsil Şöbəsinin dəstəyi ilə II Qarabağ müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş Şəki rayonunun təhsil işçiləri arasında şahmat və dama üzrə şəhər birinciliyi keçirilmişdir.**

74 nəfər təhsil işçisinin iştirakı ilə keçirilən şahmatçılar arasında yarışlarda şəhər 7 nömrəli tam orta məktəbin müəllimi Asif Nağıyev fərqlənmişdir. Damaçıların qarşılaşmasında isə 5 nömrəli şəhər tam orta məktəbin dərs hissə üzrə direktor müavini Rufət Bəkirov birinci yeri tutmuşdur. Qaliblər, yarışlarda fərqlənən iştirakçılar, hakimlər heyəti rayon komitəsinin, rayon təhsil şöbəsinin Fəxri fərmanları ilə təltif olunmuş və qiymətli hədiyyələrlə mükafatlandırılmışlar.

## Təbrik



**Bu günlərdə "İnşaat-İş" Həmkarlar İttifaqının mühasibi Gülsurə Hüseynovanın 60 yaşı tamam olub.**

G.Hüseynova 1978-ci ildə əmək fəaliyyətinə mühasib kimi başlayıb. Bir müddət müxtəlif sahələrdə işləyib. 2008-ci ilin aprel ayından "İnşaat-İş" Həmkarlar İttifaqında mühasib vəzifəsində çalışır. Həmkarlar ittifaqları sıralarında xidməti yüksək qiymətləndirilən Gülsurə xanım Müstəqil Dövlətlər Birliyi Beynəlxalq Həmkarlar İttifaqının və sahə həmkarlar ittifaqının Fəxri diplomlarına layiq görülüb. "AHİK-in 15 illik yubiley döş nişanı" və "AHİK-in 25 illik yubiley döş nişanı" ilə təltif olunub.

**Gülsurə xanımı yubiley yaşı münasibətilə səmimi-qəlbdən təbrik edir, ona gələcək işlərində uğurlar və möhkəm cansağlığı arzu edirik.**

**"İnşaat-İş" Həmkarlar İttifaqının kollektivi**

# Orta məktəb üçün müəllim seçiriksə,

## *onları orta məktəb proqramı ilə imtahan etməliyik*

**"Hüseyn Cavidin "Ana" əsərində Qanpolad həbsxanadan çıxıb evə gələndə hansı rəngdə paltar geyinmişdi və materialı nə idi?". Bu, müəllimlərin işə qəbulu üzrə Azərbaycan dili və ədəbiyyat fənnindən keçirilən imtahan zamanı namizədlərə verilən suallardan biridir. Müəllimlərin narazılığına səbəb olan bu tipli sualların imtahana salınması nə dərəcədə doğrudur?**



İmtahana bu cür sualların salınmasının nə kimi əhəmiyyəti var? Bu nüansları bilməklə namizədlər nəyə nail ola bilərlər?

Təhsil üzrə ekspert Kamran Əsədov əvvəlki illərlə müqayisədə son dövrlər imtahana salınan sualların çox dəyişikliyə uğradığını təsdiqlədi. Qeyd etdi ki, mərkəzləşdirilmiş qaydada orta ümumtəhsil məktəblərində müəllimlərin işə qəbulu Bakı şəhəri üzrə 2009-2012-ci illərdə, ölkə üzrə isə 2011-ci ildən etibarən həyata keçirilir: "İlk vaxtlarda imtahana yalnız ixtisas biliklərini yoxlayan test tapşırıqları salınırdı, sonradan bura məntiq və kurikulum üzrə test tapşırıqları da əlavə edildi. Amma 2 il bundan əvvəl, yəni 2019-cu ildə Təhsil Nazirliyi qaydalarda dəyişiklik etdi və məntiq üzrə test tapşırıqları müəllimlərin işə qəbulundan çıxarıldı. Bu, doğru idi. Çünki imtahan iştirakçılarının heç də hamısı riyaziyyatçı deyil və məntiq sualları da məlum olduğu kimi, daha çox riyazi bilikləri yoxlayırdı. Beləliklə, son 7 ilin nəticələrinə baxdıqda görürük ki, hər müəllimlərin işə qəbul imtahanlarından sonra namizədlər arasında çox ciddi narahatlıq və narazılıqlar yaranırdı. Bu il isə tamamilə fərqli formatda və çox böyük sayda narazı kütlə formalaşdı. Əgər əvvəlki illərdə test tapşırıqları çətin olurdusa və ağır suallardan daha çox istifadə edilirdisə, cari ildəki imtahanlarda test tapşırıqları, ümumiyyətlə, hər hansı bir testologiya prinsipinə sığmırdı. Xatırladım ki, bir müddət əvvəl Təhsil naziri Emin Əmrullayev Dövlət İmtahan Mərkəzinin keçirdiyi buraxılış və qəbul imtahanlarında təqdim edilmiş test tapşırıqlarının uşaqların yaş xüsusiyyətinə və psixologiyasına uyğun olmaması ilə bağlı Milli Məclisdə narazılığını bildirmişdi. Amma bu gün biz elə Təhsil Nazirliyinin özünün keçirdiyi imtahanlarda təqdim edilən test tapşırıqlarının da məzmun və testologiya baxımından standartlara uyğun olmadığını görürük".

**K.Əsədov bildirdi ki, bu tip suallar peşəkar müəllim yox, əzbərçi müəllimin seçilməsinə şərait yaradır: "Son illər yüksək balla imtahandan keçən müəllimlərin sonradan gedib sinfi idarə edə bilmədiyinin, ən primitiv məsələlərdə aciz qaldığının şahidi oluruq. Bu da onu deməyə əsas verir ki, bizim keçirdiyimiz imtahanlar şəffaf ola bilər, amma keyfiyyətli və ədalətli deyil. Çünki biz daha yaxşı müəllimi seçə bilmirik. Daha yaxşı müəllimi seçmək üçün isə peşəkar testlərdən istifadə edilməli, fərqli yoxlama və ölçü sistemləri tətbiq edilməlidir".**

Ekspert müəllimlərin işə qəbuluna hazırlaşan namizədlərin vəsait çatışmazlığından da əziyyət çəkdiyini vurğuladı: "Bilirsiniz, bu proqram və vəsait məsələsi ən ciddi və mübahisəli məsələdir. Birincisi, ona görə ki, əgər biz orta məktəb üçün müəllim seçiriksə, onları orta məktəb proqramı ilə imtahan etməliyik. Nəzərə almalıyıq ki, həmin gənclər orta məktəbi 4-5 il bundan əvvəl bitirib. Bu müddət ərzində dərsliklər dəyişib. Ona görə də universiteti təzə bitirmiş şəxslərin qısa müddət ərzində həmin proqramla hazırlaşması elə də asan olmayacaq.

Digər bir məsələ, kurikulumla bağlı vəsaitin olmamasıdır. Düzdür, Təhsil Nazirliyi bu və ya digər formada hansısa bir vəsaiti qarşılayır, ancaq bu, ədalətli yanaşma prinsipini ciddi şəkildə pozur.

Düşünürəm ki, ümumiyyətlə, kurikulum fənnindən imtahan tətbiq etməyə ehtiyacımız yoxdur, bizə ancaq ixtisası yaxşı bilən müəllim lazımdır. Digər bacarıqlar onsuz da universitetdə həmin şəxslərə çatdırılır.

**Son olaraq hesab edirəm ki, bu sahədə proqram təminatı mütləq həyata keçirməli, konkret ədəbiyyat siyahısı tərtib olunmalı, obyektiv və düzgün nəticə əldə etməliyik".**

**Aliyə SƏMƏDOVA**




# Cocu Səmədov dünya üçüncüsü olub

**"Məhsul" İdman Cəmiyyətinin yetirməsi Cocu Səmədov Macarıstanın paytaxtı Budapeştdə keçirilən yunan-Roma üzrə yeniyetmə güləşçilərin dünya çempionatında bürünc medal qazanıb.**

80 kq. çəki dərəcəsində çıxış edən Cocu Səmədov ilk görüşdə Belarus təmsilçisinə qalib gəlib. Sonrakı qarşılaşmada ABŞ idmançısından da üstün olaraq yarımfinala yüksəlib. Bu mərhələdə gürcü rəqibinə uduzan həmyerlimiz ümidini bürünc medala bağlayıb. Həlledici qarşılaşmada qazaxıstanlı güləşçiyə qalib gələrək dünya üçüncüsü olub. Cocu Səmədov yarışlara məşqçi-müəllimi İslam Cəfərovun rəhbərliyi altında hazırlaşıb.

# Hüquq məsləhətxanası

**Mən qırx ildir rabitə sahəsində əməliyyatçı işləyirəm. Lap əvvəllər məzuniyyətim iş və istirahət günləri ilə birlikdə 36 gün idi. Son illər isə məzuniyyətimi iş və istirahət günləri ilə birlikdə 30 günə endiriblər. Bu, düzgündürmü?**
**Bu barədə məlumat verməyinizi xahiş edirəm.**

**Adikə HACIYEVA, Oğuz rayonu.**

- Əsas və əlavə məzuniyyətlərdən ibarət olan əmək məzuniyyəti işçilərin Əmək Məcəlləsində müəyyən edilmiş məzuniyyət hüququnun bir növüdür.

Əvvəlcədən qeyd edək ki, əmək məzuniyyətinin müddəti iş günlərinin sayı ilə yox, Əmək Məcəlləsinin 113-cü maddəsinə əsasən, təqvim günü ilə hesablanır, yəni ərizənizdə qeyd etdiyiniz kimi desək, iş və istirahət günləri ilə birlikdə hesablanır.

Qanunvericilikdə həm əsas, həm də əlavə məzuniyyətin müddətləri və verilmə qaydası qeyd edilmişdir.

Məcəllənin 114-cü maddəsinə əsasən, əsas məzuniyyət işçinin əmək müqaviləsində göstərilmiş peşəsi (vəzifəsi) üzrə minimum müddəti qanunvericilikdə nəzərdə tutulmuş məzuniyyətdir. Maddəyə əsasən, işçilərə ödənişli əsas məzuniyyət 21 təqvim günündən az olmayaraq verilməlidir.

Aşağıdakı işçilərə ödənişli əsas məzuniyyət 30 təqvim günü müddətində verilməlidir:

a) kənd təsərrüfatı məhsullarının istehsalında çalışan işçilərə;

b) məsul vəzifələrdə (vəzifənin məsulluğu işin xüsusiyyətləri nəzərə alınmaqla işəgötürən tərəfindən müəyyən edilir) qulluq keçən dövlət qulluqçularına, müəssisənin rəhbər işçilərinə və mütəxəssislərinə;

c) xüsusi təhsil müəssisələri istisna olmaqla, təhsil müəssisəsində pedaqoji iş aparmayan rəhbər işçilərə və inzibati-tədris heyəti işçilərinə, habelə məktəbdənkənar uşaq müəssisələrinin rəhbərlərinə;

ç) təhsil müəssisələrinin metodistlərinə, baş ustalarına, istehsalat təlimi ustalarına, təlimatçılarına, kitabxanaçılarına, laborantlarına, emalatxana rəhbərlərinə, dayələrə, dəyişək xidmətçilərinə, bədii rəhbərlərinə;

d) elmi dərəcəsi olmayan elmi işçilərə;

e) həkimlərə, orta tibb işçilərinə və əczaçılara.

Göstərilən bütün hallarda əmək stajı 15 ildən çoxdursa, 6 təqvim günü də əlavə məzuniyyət verilməlidir.

**Dostum bankdan kreditlə pul götürüb, mən də zamin durmuşam. Deyirlər dostum krediti ödəyə bilməzsə, pulu mən ödəməli olacağam. Bu, doğrudurmu? Zaminlik barədə ətraflı məlumat verməyinizi xahiş edirəm.**

**Səid AĞAYEV, Bakı şəhəri.**

- Mülki qanunvericiliyə əsasən, öhdəliklərin icrası girov, dəbbə pulu, borclunun əmlakının saxlanması, zaminlik, qarantiya, beh və ya müqavilədə nəzərdə tutulan digər üsullarla təmin edilə bilər. Sizi zaminliklə bağlı məlumatlar maraqlandırdığına görə, qanunvericilikdə təsbit olunmuş mühüm normaları nəzərinizə çatdırırıq. Zaminlik müqaviləsi üzrə zamin başqa şəxsin kreditoru qarşısında həmin şəxsin öz öhdəliyini tamamilə və ya hissə-hissə icra etməsi üçün məsuliyyəti öz üzərinə götürür.

Zaminlik müqaviləsi yazılı formada bağlanmalıdır. Yazılı formaya riayət edilməməsi zaminlik müqaviləsinin etibarsızlığına səbəb olur.

Müqavilə bağlandıqdan sonra həmin öhdəliyin icrası üçün zamin də məsuliyyət daşıyır. Belə ki, borclu zaminliklə təmin edilmiş öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə, əgər zaminlik müqaviləsində zaminin subsidiar məsuliyyəti nəzərdə tutulmayıbsa, zamin və borclu kreditor qarşısında birgə məsuliyyət daşıyırlar.

Əgər zaminlik müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, faizlərin, borc tutulması üzrə məhkəmə xərclərinin və borclunun öhdəliyi icra etməməsi və ya lazımınca icra etməməsi nəticəsində kreditora dəyən digər zərərin əvəzinin ödənilməsi də daxil olmaqla, zamin kreditor qarşısında da borclu ilə eyni həcmdə məsuliyyət daşıyır.

Birgə zamin olmuş şəxslər, əgər zaminlik müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, kreditor qarşısında birgə məsuliyyət daşıyırlar.

Onu da qeyd etmək lazımdır ki, əgər zamin öhdəliyi tam, yaxud qismən icra etmişsə, bankdan təsdiqedici sənədləri alıb reqress qaydasında borcluya qarşı ödənilmiş məbləğə aid iddia irəli sürə bilər.

**Sorğuları şərh etdi: AHİK-in Hüquq şöbəsi**

## ALLAH RƏHMƏT ELƏSİN!

"Ülfət" qəzetinin baş redaktoru Aqil Dadaşov və qəzetin kollektivi Azərbaycan jurnalistikasının görkəmli nümayəndəsi, AZƏRTAC-ın keçmiş baş direktoru, "Şöhrət" ordenli, Prezidentin fərdi təqaüdçüsü, Əməkdar mədəniyyət işçisi

**ŞAMİL ŞAHMƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Baş redaktor:**
AQİL DADAŞOV
**Təsisçi:**
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7693
Sifariş: 1373
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

"Azərtürk Bank"
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" Nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
e-mail: ulfet-az@mail.ru
Sərbəst qiymət